# MEDİADA XARİCİ DÖVLƏTLƏRLƏ BAĞLI NARRATİVLƏR

FEVRAL - MART 2023



## Giriş

*“Mediada xarici dövlətlərlə bağlı narrativlər” reportu “Fakt Yoxla” tərəfindən Azərbaycan mediasında İran, Rusiya, Türkiyə və Qərb dövlətləri haqqında dərc olunan narrativləri özündə ehtiva edir. Reportun bu sayı 2023-cü ilin 1 fevral-28 fevral tarixlərin əhatə edir.*

***Məqsəd****. Reportun hazırlanmasında məqsəd ölkənin media mühitində qonşu dövlətlər olan İran, Türkiyə və Rusiya və Qərb dövlətləri ilə bağlı hansı narrativlərin (hekayələrin) dərc edildiyini, dövri olaraq bu hekayələrin sayında və ya məzmununda hansı dəyişikliklərin olduğunu, hansı dövlətlərə qarşı qarayaxma kompaniyalarının aparıldığını ölkə vətəndaşlarına göstərməkdir.*

***Monitorinq****. Monitorinq yalnız onlayn resursları əhatə edir. Heç bir televiziya və ya çap mediası monitorinqə daxil edilmir. Siyasətçilərin və qurumların açıqlamaları və ya bəyanatları monitorinqə yalnız o halda daxil edilib ki, onlara verilən başlıqlar yönləndirici olsun. Video formatında olan materiallar monitorinqin əhatə dairəsinə daxil edilməyib. Monitorinq zamanı uyğun media qurumlarının bütün dərc edilən xəbərlər gözdən keçirilib, açar sözlər vasitəsilə axtarışdan istifadə edilməyib. Monitorinqə cəlb edilən media qurumları ölkədə çox oxunma sayına və tərəfliliyinə əsasən seçilmişdir.*
*Fevral ayı ərzində monitorinq edilmiş media qurumları aşağıdakılardır:*
***Apa.az, Oxu.az, Musavat.com, Sahar Azeri, Sputnik.az, Demotiya.com, Az.shafaqna.com, İslamtimes.org.***

***Nəticə.*** *Nəticələrə görə bu ay ərzində monitorinq edilmiş media qurumlarında ən çox yer alan xarici dövlət İrandır. İran ilə bağlı ay ərzində 74 narrativ qeydə alınıb. Ümumilikdə monitorinqin nəticələsində 113 narrativ aşkar edilmişdir:*



*İran ilə bağlı ən çox yayılan mövzu Tehranda Azərbaycan səfirliyinə edilən hücum olub. Belə ki, bu mövzu ilə bağlı 14 fərqli xəbər dərc edilib. Xoyda baş verən zəlzələ ilə bağlı isə ümumilikdə 11 narrativ dərc edilib.*

*Qərblə bağlı narrativlərin 3-də ABŞ və ya Qərb ölkələrinin Rusiyanı geridönülməz şəkildə məğlub etmək istəyinin olduğu, Rusiyada terror aktı planlaşdırdığı iddia edilir.*

*Rusiya ilə bağlı narrativlərin 5-i Rusiyanın sanksiyalarla yaxud silah gücünə məğlub etməyin mümkün olmadığını, 15-i isə Dağlıq Qarabağ münaqişəsi yə Ermənistan-Azərbaycan münasibətləri ilə bağlıdır.*



# İran

Azərbaycan dövləti Xoyda zəlzələdən zərər çəkmiş soydaşlarımıza yardım etməyə hazırdır, lakin İran buna imkan vermir. Link (2 fevral 2023)
Digər mənbələrdə: Link, Link

İran tərəfi üzvü olduğu və qərarların konsensusla qəbul edildiyi beynəlxalq təşkilatlarda terror hücumunun beynəlxalq müstəvidə geniş şəkildə ifşa olunmasının qarşısının alınmasına çalışıb. Link (1 fevral 2023)
Digər mənbələrdə: Link, Link

Güney Azərbaycanın problemlərinə Tehran rejiminin laqeydliyi davam edir. Link (1 fevral 2023)
Yenidən paylaşım: Link, Link

Lakin Xomeyninin rəhbərliyi ilə İran cəmiyyətində xüsusi zümrə şəklini almış mollalar qısa müddətdə xalqın inqilabını özününküləşdirməyə müvəffəq oldular. Görünür, bu işdə öz strateji hədəflərinə uyğun şəkildə Xomeyniyə və xomeynizmə gizli dəstək verən xarici qüvvələrin və əcnəbi xüsusi xidmətlərin rolu da ciddi təsirini göstərdi. Hər halda, ruhanilərin inqilabi hərəkata rəhbərliyi ələ keçirməsi geniş kütlələrin "istiqlal, azadlıq, ədalət" şüarının "istiqlal, azadlıq, İslam Respublikası" şüarı ilə əvəzlənməsinə gətirib çıxarıb. Link (8 fevral 2023)

Nə qədər acı olsa da, Güney Azərbaycanın Xoy şəhərində bir həftə ərzində ardıcıl iki dəfə baş verən 6 maqnitudalı güclü zəlzələnin nəticələrinin aradan qaldırılması üçün beynəlxalq həmrəyliyə Tehran rejimi icazə vermədi. Link (9 fevral 2023)
Yenidən paylaşım: Link, Link

İrandan Azərbaycana qarşı hər hansı həmlə beynəlxalq birlik tərəfindən Tehranın başına "od ələnməsinə" gətirib çıxarar. Ona görə də iranlı səfirin belə sərsəm açıqlaması ilk növbədə öz ölkəsi üçün böyük təhlükə mənbəyidir. Link (9 fevral 2023)

Səfirlər ölkələr arasında münasibətlərin normallaşmasına, sülhə xidmət edir. Adətən onlar daha humanist peşə sahibləri sayılırlar.İranın Ermənistandakı səfiri Abbas Bədəxşan görünür, bu peşəyə xəyanət etmək üçün diplomatiya ilə məşğul olur. Azərbaycanla Ermənistan arasında münasibətlər üçüncü qüvvənin müdaxiləsi səbəbindən uzun illərdir normallaşmır. Son zamanlar bu sıraya İran rejimi də fəal şəkildə qoşulub. Link (9 fevral 2023)
Yenidən paylaşım: Link, Link, Link

İran Suriyanın zəlzələ olan bölgələrində vəziyyətdən istifadə edərək, zərər çəkmiş insanlara yardım adı altında döyüş silahları göndərə bilər. Link (10 fevral 2023)
Digər mənbələrdə: Link

Şah devrildi, yerinə daha mütərəqqisi gəldimi? Hadisələrin sonrakı inkişafı və İranın indi düşdüyü ağır böhranlı vəziyyətə əsasən, bu suala "yox" cavabı vermək olar. Link (10 fevral 2023)

İranın rəsmi "İran" qəzeti Azərbaycan əleyhinə hədyanlar yağdırır. Türkiyədəki dəhşətli zəlzələnin fəlakətli nəticələrinin aradan qaldırılması üçün Azərbaycanın dövlət olaraq, xalq olaraq səfərbər olması molla "dua"ları ilə yazılan qəzetin səhifələrində qısqanclıqla qarşılanır. Link (11 fevral 2023)
Təkrar paylaşım: Link, Link

İran inqilabının 44-cü ildönümü ilə əlaqədar bugünkü yürüşdə Təbriz küçələrində cəmi iki cüt, bir tək vətəndaş iştirak edib. Çox güman ki, onlar da hökumətin hədə-qorxularına görə qatılıblar. Link (11 fevral 2023)
Təkrar paylaşım: Link, Link

Azərbaycan İranın dövlət etikası ilə deyil, terrorçu zehni ilə hərəkət etdiyini görərək, molla rejiminin nağıllarının yox, öz dəlillərinin arxasınca gedib. Proseslərin bu cür inkişafından uduzan tərəf İran olacaq. Çünki istər beynəlxalq konyunktura, istərsə də regional konfiqurasiya çox rahat şəkildə Bakının strateji oxlarını İrana qarşı fırladıb. Link (11 fevral 2023)
Təkrar paylaşım: Link

Son vaxtlar İranın anti-Azərbaycan siyasətinin yeni çalarları üzə çıxmaqda, yeni detalları aşkar olmaqdadır. Getdikcə açıq düşmənçilik xarakteri kəsb edən bu siyasət təkcə ikitərəfli münasibətlər çərçivəsində deyil, regional müstəvidə də həyata keçirilir. Link (11 fevral 2023)
Təkrar paylaşım: Link

Qeyd edək ki, bu, İranda ilk hal deyil. İran Qeydiyyat İdarəsinin azərbaycanlı uşaqlara türk mənşəli adlara görə kimlik vəsiqəsi verməməsi valideynlərin etirazları ilə qarşılanır və onlar məsələni sosial mediada ictimailəşdirməyə məcbur olurlar. Link (16 fevral 2023)
Təkrar paylaşım: Link

Qərb və İranın münasibətlərinin bundan sonra necə olacağına gəlincə, Avropa kimi güclü siyasi-iqtisadi bölgə İrana belə kəskin yanaşırsa, bu o deməkdir ki, cənub qonşumuz təcrid oluna-oluna gedir. Link (18 fevral 2023)

Azərbaycanın aydın mövqeyi və İranın cəfəng iddiaları. Link (21 fevral 2023)

Hərçənd ki, Azərbaycanın Aİ ilə (Fransanı çıxmaq şərtilə) danışıqlar masasında razılığa gəlib daha böyük işlər üçün yeni-yeni strateji xətt etmək təcrübəsi var. Bu təcrübə, sadəcə, indi axsama mərhələsindədir, lakin gələcək üçün layihələri sual altında saxlamır. Ona görə də İran bu vəziyyətə sevinmək əvəzinə, indidən özünə gün ağlasa, daha yaxşı olar. Link (22 fevral 2023)
Təkrar paylaşım: Link

İran molla-fars rejiminin Azərbaycana olan kin-küdurəti günbəgün özünü daha bariz büruzə verməyə başlayır. Biz bunu rəsmi Tehranın son vaxtlar daha intensiv şəkildə Ermənistana etdiyi humanitar, siyasi, iqtisadi, hərbi dəstək baxımından xüsusilə son 2 il ərzində çox aydın müşahidə edirik. Molla rejiminin Ermənistana bir qara qəpiksiz kamikadze dronlar, raketlərlə təchiz etməkdə bir məqsədi var - bu silahlar Azərbaycana, Azərbaycan xalqına qarşı istifadə edilsin. Link (1 fevral 2023)
Təkrar paylaşım: Link

Nəzərə almaq lazımdır ki, dövlətimizə qarşı Ermənistan qədər ikinci ən böyük təhdid və təhlükə məhz İrandan gözlənilir. Ona görə ki, Tehran rejimi beynəlxalq hüququ tanımamaqla yanaşı, həm də dini və insani dəyərlərə hörmət etmir. Bir tərəfdən terroru dəstəkləmək və onu yaradıb yaymaq, digər tərəfdən narkotiklə regionu və dünyanı zəhərləmək. Link (1 fevral 2023)

Azərbaycan Respublikasının səfirliyində terror aktı törədən cinayətkar azı bir ay müddətinə Tehranda yerləşən psixiatriya xəstəxanalarından birində qalacaq və burada müxtəlif müayinələrdən keçiriləcək. Bu faktın özü artıq rəsmi Tehranın cinayətkar Yasin Hüseynzadəni öz himayəsi altına götürdüyünü bir daha sübut edir. Link (1 fevral 2023)
Təkrar paylaşım: Link

Ötən həftə Azərbaycanın Tehrandakı səfirliyində baş verən terror hadisəsi bütün dünya tərəfindən qınanıldı. Hadisə İranın məqsədini, bizə qarşı qərəzini və düşmənçilik düşüncələrini bir daha açıq-aşkar ortaya_qoydu. Link (1 fevral 2023)

Məlumdur ki, İranın Azərbaycanda casus şəbəkələri var və İran bu şəbəkələrlə Azərbaycanı açıq şəkildə təhdid edirdi - siyasi, dini fonda, İran mediası tərəfindən. Amma İran başa düşməlidir ki, Azərbaycan güclü dövlətdir. 30 il ərzində kimin kimə işlədiyini çox yaxşı bilirik. Lazım olan vaxtda onlara qarşı tədbirlər görülür. Link (1 fevral 2023)

İranın günahı ucbatından Azərbaycanla münasibətlərinin gərginləşməsi ortaya bir sıra faktları çıxartdı. Artıq qonşu ölkənin Azərbaycandakı ictimai-siyasi və informasiya dayaqları Azərbaycan xüsusi xidmət orqanları tərəfindən nəzarətə götürülüb, Qum mərkəzli dini icmalar ifşa olunur, casus şəbəkəsi dağıdılır. İran 44 günlük Vətən müharibəmizdə və ondan sonra tutduğu ermənipərəst mövqeyi, Azərbaycana isə aşkar düşmənçiliyi ilə dövlətimiz tərəfindən adekvat münasibəti görməkdədir. Link (2 fevral 2023)
Təkrar paylaşım: Link

Cənubi Azərbaycanda bir neçə gün öncə baş verən zəlzələ zamanı evləri dağılan, küçələrdə qalan soydaşlarımıza molla rejimi divan tutur. Onlara heç bir yardım edilmir, müvəqqəti olaraq harasa yerləşdirilmirlər, ac-yalavac qarlı-şaxtalı günlərdə küçələrdə qalıblar. Link (2 fevral 2023)

İran dövləti səfirliyə hücum və ölüm faktına görə Azərbaycandan üzr də istəməyib. İlk andan bəlli idi ki, bu terrorun arxasında SEPAH dayanır. Link (2 fevral 2023)

İran beynəlxalq münasibətlərdə elə kobud, əcaib davranır ki, buna heç bir ad qoymaq mümkün deyil. Azərbaycan səfirliyinə hücum edib qətl törədəni əvvəlcə guya itmiş arvadını axtaran biri elan etdilər. Terrorun qanı soyumamış səfirliyin binasında ondan televiziya üçün intervü aldılar. Link (2 fevral 2023)

Xoyda baş verən zəlzələdə zərər görən, küçələrdə qalan soydaşlarımıza İran tərəfi heç bir kömək etmir, edilən təklifləri rədd edir. Link (2 fevral 2023)
Təkrar paylaşım: Link

Qeyd edək ki, Musavat.com-a daxil olan məlumata görə, ikitərəfli münasibətlərdə böhrana baxmayaraq, Azərbaycan bu günlərdə diplomatik kanallarla yardım təklif edib. İran isə bunu rədd edib. Link (2 fevral 2023)
Təkrar paylaşım: Link

İran Qarabağdakı separatçı-terrorçu rejimə də əlindən gəldiyi qədər kömək etdi, ta ki, Azərbaycan dövləti Xankəndiyə yanacaq və digər yüklər daşıyan, Ermənistan nömrə-nişanlı TIR-ların yolunu kəsdi, bu məkrli planı ifşa etdi, bir müddət donquldanıb, kiridilər. Link (2 fevral 2023)
Təkrar paylaşım: Link

İranın Xoy şəhərində zəlzələdən zərər çəkən azərbaycanlıların problemləri İran hakimiyyəti tərəfindən həll edilmir. Bir sıra ekspertlər iddia edirlər ki, Tehran bunu qəsdən edir ki, azərbaycanlılar Xoy şəhərindən köçsünlər. Link (3 fevral 2023)

İran azərbaycanlıları sanki diri-diri basdırmaq istəyir. Link (3 fevral 2023)

Rəsmi Tehranın Türkiyə və Azərbaycana münasibəti elə Xoy vilayətindəki zəlzələdən zərər çəkənlərə yardım göstərilməsinə belə razılıq verməməsindən bəlli oldu. O halda Türkiyə və Azərbaycanın birgə istintaq qrupu yaratması ehtimalı belə, öncədən suya düşmüş olur. Faktiki olaraq İran bütün qapıları üzümüzə bağlamaqda qərarlı görünür və obyektiv istintaq aparmaq niyyətində deyil. Link (4 fevral 2023)

Hadisəni detallı araşdıracağını vəd edən İran indiyədək bu yöndə heç bir məntiqli, iki ölkə arasında münasibətlərin bərpasına xidmət edəcək açıqlama verməyib, yanaşma sərgiləməyib, iş ortaya qoymayıb. Halbuki söhbət iki qonşunun əlaqələrini uzun müddətə böhrana soxan bir cinayət əməlindən gedir. Link (4 fevral 2023)
Təkrar paylaşım: Link

Bu epizod da İran dövlətinin poqonlu qulluqçularının 27 yanvar teraktında əli olmasını təsdiq edir. Bundan əvvəl səfirliyin önündəki mühafizə köşkündə oturan polismen də əlisilahlı terrorçunun zərərsizləşdirmək, səfirliyə daxil olduqdan sonra onun ardınca

getmək əvəzinə, arxayın bir şəkildə kiməsə zəng etməklə məşğul olmuşdu. Link (8 fevral 2023)

İranın Azərbaycana qarşı qərəzli və birtərəfli mövqeyi ilə tanınan "Səhər" kanalı indi də əlinə lupa alıb "Yeni Müsavat" əməkdaşlarının yazdıqlarını təftiş etməyə girişib. Link (8 fevral 2023)

Ermənistan Azərbaycana qarşı növbəti təxribat planlaşdırır. Bu təxribatın hazırlanmasında və həyata keçirilməsini İran SEPAH-ın 30 hərbçisindən ibarət diversiya qrupu iştirak edəcək. Link (8 fevral 2023)

Ermənistan və İran Laçına_hücuma hazırlaşır, ordumuz HAZIR durumda! Link (9 fevral 2023)

İran görür ki, Türkiyə ilə Qərb arasında münasibətlər rəvan deyil və Qərb bütün vasitələrlə Ermənistana kömək etmək istəyir. Bizim təbii müttəfiqimiz Türkiyənin isə başı zəlzələnin fəsadlarının aradan qaldırılmasına qarışıb. Düşünürlər ki, belə vəziyyətdə İranın Ermənistan tərəfdən münaqişəyə qatılması Qərbin onlara təzyiqini azaldar, onlar da bundan istifadə edib, həm nüvə proqramını, həm də daxildə repressiyaları genişləndirib orta əsrlərə xas olan teokratik rejimlərinin ömrünü uzada bilərlər. Link (9 fevral 2023)
Digər mənbələrdə: Link

Artıq uzun müddətdir ki, Azərbaycandan İrana xüms vergisi adı ilə külli miqdarda pulların göndərildməsi barədə məlumatlar yer alır. Ekspertlər bildirirlər ki, Azərbaycanda minlərlə insanın getdiyi ziyarətgahlar İranın birbaşa nəzarətində olur. Əhli-beyt İran tərəfindən daha çox idarə olunur və bu mərasimlər birbaşa Xomeyni Fondu tərəfindən maliyyələşdirilir. Həmin ziyarətdə on minlərlə azərbaycanlı iştirak edir. Gedənlərin məqsədi öz inanclarını yerinə yetirmək olsa da, İran kəşfiyyatı, xüsusi xidmət orqanları orada müəyyən adamların ələ alınmasını həyata keçirir. Link (10 fevral 2023)
Təkrar paylaşım: Link

Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilən terror aktı İran rejiminin, kəşfiyyat qurumlarının ölkəmizdəki uzantılarının kəsilməsi həyati zərurətə çevrilib. Link (10 fevral 2023)

Zatən, 3-4 ay idi ki, ölkəmizin ictimai-siyasi fəalları, diplomatlar, jurnalistlər, deputatlar İran dövlətinin bölgədə yeritdiyi siyasətin, Ermənistana qahmar çıxmasının, Azərbaycanın ümdə maraqlarına zidd getməsinin tənqidçiləriydilər. Ötən ayın 27-də Tehrandakı səfirliyimizə qarşı törədilən terror aktı isə səbr kasamızı daşıran son damla oldu. Link (11 fevral 2023)

Xoy vilayətindəki dağıdıcı zəlzələdən zərər çəkənlərə dövlətin yardım etməməsi səbəbindən artan etirazlardan sonra İran parlamentinin sədri Məhəmməd Baqir Qalibaf zəlzələdən zərər çəkmiş bölgəyə səfər edib. Link (12 fevral 2023)
Digər mənbələrdə: Link, Link

Son vaxtlar İran mətbuatında, mediasında Azərbaycan dövlətinin rəhbərliyi, ayrı-ayrı məmurların ünvanlarına təhqiramiz fikirlər səslənməkdə, davranışlar nümayiş olunmaqdadır. Xatırladaq ki, bir müddət əvvəl məhz İran rejiminin əli ilə Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücum oldu, terror hadisəsi törədildi. Videogörüntülərdən də aydın görünürdü ki, bu hücum əvvəlcədən planlaşdırılıb, ölçülüb-biçilib. Bu azmış kimi, İran rejimi çərçivəni daha da aşaraq, çirkablı təhqir "maşınını" işə salıb. Halbuki Azərbaycan uzun illər İranla münasibətdə hər zaman həssas və diqqətli olub, mehriban siyasət yürüdüb, beynəlxalq müstəvidə Qərb dövlətlərinin sanksiyalarına, bu kimi təşəbbüslərə, siyasi qarşıdurmalara qoşulmayıb. Link (14 fevral 2023)

Son vaxtlar İran mətbuatında, mediasında Azərbaycan dövlətinin rəhbərliyi, ayrı-ayrı məmurların ünvanlarına təhqiramiz fikirlər səslənməkdə, davranışlar nümayiş olunmaqdadır. Link (14 fevral 2023)

Dünyanın tanınmış şəxs və qurumları tərəfindən İranın molla rejiminin idarəçiliyi, insan haqlarını pozan fəaliyyəti barədə münasibətlər yayılmağa davam edir. Link (15 fevral 2023)

Çox qəribədir ki, Qərblə düşmən olan, Qərbin sanksiyalarına məruz qalan İran Ermənistan məsələsində Qərbin ən parlaq təmsilçilərindən olan Fransa ilə ortaqdır. Link (15 fevral 2023)

Akademik Ziya Bünyadovun qətlinin təşkilatçısı İranda gizlənir. iran isə onu himayə edir. Link (16 fevral 2023)
Təkrar paylaşım: Link, Link

Molla rejimi bütün xəyanət resurslarını işə salıb. Azərbaycana açıq-aşkar vurduğu zərbələr bir yana, Güney Azərbaycandakı soydaşlarımıza da divan tutur. Link (16 fevral 2023)

Qətlin planlaşdırılmasında birbaşa iştirak edən Tariyel Ramazanovun Azərbaycana təhvil verilməməsi İranın ali dini liderinin birbaşa göstərişi ilə həyata keçirilib. Link (17 fevral 2023)

Molla rejimi öz insan haqlarını pozan siyasəti ilə artıq sonunu gətirib. Bu gün Münhendə keçirilən Təhlükəsizlik Konfransı da bir daha göstərdi ki, aparıcı Qərb dövlətləri indiki İran hakimiyyətini artıq tamamilə qəbul etmir. Bu, tarixi dönüşdür. Link (18 fevral 2023)

Müasir dünyada qonşularının, eləcə də uzaq-uzaq ölkələrin sevmədiyi, "şər ocağı", "qan çanağı" hesab etdiyi 3-4 dövlət var, ikisi bizim bəxtimizə və sərhədimizə düşüb: Rusiya və İran. Link (20 fevral 2023)
Təkrar paylaşım: Link

Azərbaycanın Tehrandakı səfirliyində törədilən terrorun arxasında İranın dövlət orqanlarının və ya rəsmi şəxslərinin dayandığı gün kimi aydındır. Bunu terrorçunun

himayə edilməsi də, Tehranın bu günədək rəsmən üzr istəməməsi də, cinayətin iştirakçılarının dairəsini elan etməməsi, istintaqı qərəzli, gizli aparması və s. də birmənalı olaraq təsdiqləyir. Link (23 fevral 2023)

Qeyd edək ki, Azərbaycan tərəfi soydaşlarımızın yaşadığı Xoy şəhərinə humanitar yardım göndərmək istəsə də, İran tərəfi buna imkan vermir. Link (2 fevral 2023)
Təkrar paylaşım: Link

Güney Azərbaycan tarixini farslaşdırmağa çalışan İran tarixçiləri Xoy sözü fars dilində heç bir anlam daşımadığı üçün onun kökünü erməni dilinə bağlamağa çalışırlar. Ümumiyyətlə, İran tarixşünaslığı hər hansı bir tarixi məsələnin varlığını farsların keçmişi ilə əlaqələndirə bilmədikdə, Azərbaycan türklərinin tarixi varlığını inkar etmək üçün, onu həmişə erməni, yaxud kürdlərə aid etməyə çalışırlar. Link (22 fevral 2023)
Təkrar paylaşım: Link, Link

1996-cı ildə "Azərbaycan Masası" adlı xüsusi bir qurum yaradan İran 3 min 500 casusu Azərbaycana göndərib. Yaxalanan bəzi casuslar öz cinayətlərini etiraf edib, 700 nəfər isə qaçıb. Link (1 fevral 2023)

İranın onillərdir Azərbaycana yetişdirib-yerləşdirdiyi casuslarına qarşı aparılan əməliyyatlar olduqca mühümdür: bəziləri haqda ümumiyyətlə bilgisizlik vardı – bunları hüquq-mühafizə orqanları üzə çıxarır Link (2 fevral 2023)

İranın farsdilli mediasının Azərbaycanın səfirliyinə hücumla bağlı hadisələri təhrif etmə, bu terror hücumunu məişət zemininə endirmə kampaniyası indi fərqli müstəvidə inkişaf edir. Link (3 fevral 2023)

Keçmişdəki təcrübələrindən yararlanaraq Azərbaycan vətəndaşlarını və Güneydə yaşayan bəzi zəif iradəli soydaşlarımızı ələ almaqla, onları peşəkar casus kimi öyrədiblər. İstədikləri isə fars mədəniyyətinə dayanan bir şübiyyəçiliyə uyğun insanlar yetişdirib Azərbaycana sızdırmaq və lazım olan vaxta kimi gözləmək idi. Link (4 fevral 2023)
Təkrar paylaşım: Link

1991-ci ildə müstəqilliyimizi bərpa edən kimi Xameneyi Arazın o tayından elan etdi ki, "həmişə komponent bütünlüyə, kiçik isə böyüyə birləşir". Və bununla Arazın bu tayını ələ keçirmək hədəfini açıqlamış oldu. Elə həmin günlərdən başlayaraq İran Azərbaycanın ələ keçirilməsi istiqamətində genişmiqyaslı işlərə start verib.İran rejiminin istifadə etdiyi əsas rıçaq şiəlikdir. Link (6 fevral 2023)

Qeyd edək ki, Xoyda baş verən zəlzələ ilə bağlı İran Azərbaycan və Türkiyənin humanitar yardım təklifini rədd etmişdi. Link (6 fevral 2023)
Təkrar paylaşım: Link

Azərbaycana hücum planı: İran haranı ələ keçirmək istəyir? Link ( 9 fevral 2023)

Ermənistanla İran Laçın və Qubadlıya hücum hazırlayır. Link (8 fevral 2023)
Təkrar paylaşım: Link

İran mənbələri "şəxsi problemləri" olan bir dəlinin hücumundan tutmuş, müxtəlif saxta izahatlarla çıxış ediblər. Azərbaycan XİN-in yaydığı görüntülərdən açıq-aydın bəlli olur ki, hücum təxminən 40 dəqiqə davam edib, İran polisi isə silahlı şəxs binaya basqın edərkən və içəriyə çoxsaylı atəşlər açarkən müdaxilə etməməyi üstün tutub. Terrorçu səfirlik binasının diplomatik işçiləri və onların ailə üzvlərinin yaşadığı evlərin pəncərələrini nişan alıb. Link (11 fevral 2023)
Təkrar paylaşım: Link, Link

Münhendə İrana etiraz: Rədd olsun diktatura! Link (17 fevral 2023)

İranda yaşayan türklərə qarşı assimilyasiya siyasəti tarix boyu müşahidə olunub. Belə getsə, hələ də davam edəcək. Tədris fars dilindədir, dogma dildə məktəb yoxdur. Bir nəsl öz tarixini bilmirsə və öz dilini öyrədən məktəbi yoxdursa, bu, artıq assimilyasiya siyasətinin qurbanı olmaq deməkdir. Link (18 fevral 2023)
Təkrar paylaşım: Link, Link

Azərbaycan münasibətlərin normallaşması üçün haqlı olaraq, "maşanı tutan əlin" də cəzalandırılmasını tələb edir. Çünki terakt İran rejiminin iddia etdiyi kimi "məişət hadisəsi" qədər bəsit deyil və Tehran əlaqələrin bərpasını istəyirsə, öz içindəki sabotajçıları neytrallaşdırmalıdır. Hərçənd, terrorçudan müsahibə alan və mühakimə etməmək üçün psixi xəstəxanaya yerləşdirən İran rejiminin bunu edəcəyi gözləntisi azdır. Bu da Bakı-Tehran xəttində gərginliyin uzun müddət davam edəcəyi deməkdir. Link (20 fevral 2023)
Digər mənbələrdə: Link, Link

Ermənistan İran və Fransanın dəstəyini alıb, Zəngəzur dəhlizi ilə bağlı öhdəliyindən imtina edərək, Qarabağda yeni işğal ssenarisini fərqli müstəvidə aparmaq istəyir Link (23 fevral 2023)

"İran Azərbaycanın Avropaya enerji təchizatı üçün əsas təhlükələrdən biridir" Link (1 fevral 2023)
Təkrar paylaşım: Link, Link

İran tərəfinin bu təxribatçı addımını pisləyir və beynəlxalq öhdəliklərinə riayət etməsinin zəruri olduğunu bildiririk. Azərbaycan tərəfi səfirliyinə qarşı terror aktının geniş şəkildə pislənməsi və terror aktını törədənlərin cəzalandırılması üçün bütün müvafiq beynəlxalq platformalardan istifadə edəcək. Link (1 fevral 2023)

DİN İranın casus şəbəkəsini çökdürməkdə davam edir. Link (1 fevral 2023)

Məsələ burasındadır ki, terorrçu saxlanılan zaman rahat şəkildə İran telekanallarına müsahibə verirdi ki, bu da həm Azərbaycanda, həm də beynəlxalq arenada tənqidə səbəb

olmuşdu. Müsahibə zamanı terrorçuda hər hansı psixi davranışlar da hiss olunmurdu. Görəsən, terrorçu İran hüquq-mühafizə orqanlarının da adlandırdığı kimi "psix"dirsə, səfirliyə hücumu necə planlamışdı? Link (1 fevral 2023)
Təkrar paylaşım: Link

İrandakı zəlzələdə evləri dağılan azərbaycanlılar küçələrdə gecələməyə məcburdur. "Qafqazinfo" xəbər verir ki, buna səbəb İran hökumətinin soydaşlarımıza sahib çıxmayaraq, taleyin ümidinə buraxmasıdır. Link (3 fevral 2023)
Digər mənbələrdə: Link, Link

Terrorçunun hadisəni törətmək üçün məhz İranda istirahət günü olan cümə gününü seçməsi (terror aktına mane ola biləcək halları minimuma endirmək üçün), özü ilə hadisə yerinə avtomat silah və güllələrlə dolu ehtiyat daraq, "Colt" tipli tapança, "Molotov kokteyli", ağır zərbə aləti və sair vasitələr gətirməsi, İran polisinin terror aktına müdaxilə etməməsi hadisənin əvvəlcədən planlaşdırıldığını ehtimal etməyə əsas verir. Link (6 fevral 2023)
Digər mənbələrdə: Link, Link

## Türkiyə

Türkiyənin Qızıl Aypara Cəmiyyətinin yardım təklifindən isə Tehran rejimi imtina edib. Link (1 fevral 2023)

Hərbçilərimiz Qarsda: Bir tikə qardaş çörəyi Link (2 fevral 2023)

İsveçdə Quranın Türkiyə səfirliyi önündə yandırılması Ankaranın islam dünyasında güclənən mənəvi və strateji təsirlərinə reaksiya idi. Link (3 fevral 2023)
Təkrar paylaşım: Link

## Rusiya

NATO-nun resursları Rusiya ilə proksi müharibədə qalib gəlmək üçün kifayət deyil, birbaşa silahlı münaqişədə isə nüvə triadasının potensialı alyansın məhv edilməsinə zəmanət verir. Link (10 fevral 2023)
Təkrar paylaşım: Link

Afrika, Asiya və Latın Amerikasında dövlətlərin milli maraqlarını müdafiə edən yeni inkişaf mərkəzləri formalaşır və çoxqütblülük konturları doğulur. Rusiya Prezidenti Vladimir Putinin sayəsində dünya daha birqütblü deyil. Link (10 fevral 2023)

AB ölkələrinin bəzi nümayəndələri öz iqtisadiyyatlarına zərər verə biləcək addımlara müqavimət göstərməyə başlayıblar: söhbət, məsələn, neft və qaz tədarükündə ciddi məhdudiyyətlərdən gedir. Onlardan fərqli olaraq, Rusiya iqtisadiyyatı bu şəkildə

məhdudiyyətlərin nəticələrinin öhdəsindən gələ bilər. Link (21 fevral 2023)

Rusiya Federasiyası dəfələrlə bəyan edib ki, ölkə Qərbin bir neçə il əvvəl Rusiyaya qarşı tətbiq etməyə başladığı və artmaqda davam edən sanksiya təzyiqinin öhdəsindən gələcək. Moskva qeyd edib ki, Qərbin Rusiya Federasiyasına qarşı sanksiyaların uğursuzluğunu etiraf etmək cəsarəti çatışmır. Link (23 fevral 2023)

Qərbin anti-Rusiya sanksiyalarından gözləntiləri reallıqla üst-üstə düşmürdü. Rusiya iqtisadiyyatının qaçılmaz çöküşü ilə bağlı proqnozlar niyə özünü doğrultmadı və ya Rusiya ən güclü sanksiyaların zərbəsinə necə tab gətirə bildi? Link (23 fevral 2023)

Azərbaycan-RF münasibətləri möhkəmlik baxımından sınaqdan keçirilib. Link (23 fevral 2023)

Əvvəla, onun münaqişəyə çevrilməsinin əsas memarı tarix baxımından Rusiya olub. Ermənilərin bölgəyə köçürülməsinin də arxasında Rusiya dayanır. Link (2 fevral 2023)

Əldə etdiyimiz məlumata görə, o, Qarabağdan Rusiya sülhməramlı kontingentinə məxsus yük maşınının kuzovunda, Rusiya hərbçilərinə məxsus olan və təkrar emal üçün geri göndərilən, tər iyi verən alt paltarlarının və çirkli uniformaların arasında qaçıb. Link (7 fevral 2023)

Fransa Rusiyanın vasitəçiliyini ikinci plana salmaq istəyir. Bu məqsədlə Makron Rusiyaya qarşı kəskin ittihamlar səsləndirib dünyanın diqqətini çəkməyə çalışır. Əslində, Fransanın məqsədi Ermənistanın mövqeyini müdafiə etməkdir. Fransa Brüsselin təşəbbüsü ilə aparılan danışıqlara qoşulub, amma bu cəhdi də uğursuz olub. Link (18 fevral 2023)

Maraqlıdır, Vardanyanın gizli yolla Moskvaya getməsinə səbəb nə idi? Yenidən Qarabağa qayıtmaqda məqsədi nədir? Kreml alət kimi istifadə etdiyi bu şəxsin üzərinə hansı vəzifələr qoyub? Link (19 fevral 2023)

Qarabağdakı separatçıların güvənc yeri Rusiya sülhməramlı kontingenti və özlərinin arxalandıqları xəstə təxəyyüldür. Link (22 fevral 2023)

Moskva qısqanclığını Azərbaycan-Rusiya-Ermənistan liderləri arasında imzalanmış üçtərəfli sənədlər toplusunun icrasına yönəltməklə pərdələməyə çalışacaq. Link (23 fevral 2023)

Daha dəqiq desək, Vardanyanla yanaşı, onu himayə edən, qeyri-leqal gəlirlərini artırmaqda yardımçı olan Rusiya və Qərbin bu etap üçün oyunu pozuldu. Link (24 fevral 2023)

Lavrov isə sanki onları bizim qanuni torpaqlarımız saymır və sırf 7 rayondan danışır. Bununla da incə şəkildə yenə də ərazi bütövlüyümüzü şübhə altına qoyur. Rusiyanın Qarabağ anklavındakı davranışları, Vardanyan və "Rus icması" projeləri, habelə Moskvanın sülh müqaviləsinə "Dağlıq Qarabağın statusu gələcək nəsillərə saxlanılsın"

bəndini əlavə eləmək cəhdləri isə onun yanaşmasının təsadüfi olmadığını bir daha təsdiqləyir. Link (2 fevral 2023)

Aydındır ki, Rusiya və Ermənistan eyni bezin qırağı, Azərbaycana qarşı işğal ortaqlarıdır. O zaman təkcə İrəvan yox, Moskva da bizdən üzr istəməlidir! Hər halda, beynəlxalq hüququ, BMT Nizamnaməsini hələ heç kim ləğv eləməyib. Link (5 fevral 2023)

Əfsus ki, Rusiyanın "Qarabağ problemi" üçün öz "həll modeli" var - hansını ki, Azərbaycan artıq rədd edib və heç vaxt yaxına buraxmayacaq. ABŞ-la bağlı isə hələlik analoji problemimiz yoxdur. Daha doğrusu, 30 illik danışıqlar dönəmindən fərqli olaraq, Amerika indi daha praqmatik mövqedə görünür. Qalır bunu praktikada təsbit eləmək. Hərçənd Vaşinqton da, deyəsən, Rusiya amilini nəzərə alaraq, astagəllik edir. Link (7 fevral 2023)

Rusiya Müdafiə Nazirliyindən "atəş" açıqlaması və toponimlərimizə həqarət. Rusiya Müdafiə Nazirliyi budəfəki məlumatında da Azərbaycan toponimlərini bildiyi kimi açıqlayıb. Dəfələrlə Azərbaycan Müdafiə Nazirliyinin xəbərdarlığına baxmayaraq, "Dağlıq Qarabağ", "Stepanakert", "Mardakert", "Martuni" yarlıqlarından istifadə olunub. Link (7 fevral 2023)

Cənubi Qafqazda sülh prosesinə geri dönüş ehtimalı artıb. Bu prosesin pozulmasında və dalana dirənməsində Rusiya və Fransanın birbaşa rolu olmuşdu. Bu iki dövlətin maraqları regional sülh prosesinin uğur qazanma ehtimalı ilə kəskin ziddiyyət təşkil edirdi. Və bu səbəbdən də, həm Rusiya, həm də Fransa Azərbaycan-Ermənistan sülh danışıqlarını pozmaq üçün bütün təsir mexanizmlərini işə salmaqdan çəkinmədi. Link (9 fevral 2023)

Bir vaxt Vladimir Putin Suriya müharibəsini nəzərdə tutaraq "Bizi Əfqanıstan kimi ikinci müharibəyə sürükləmək istəyirlər" deyəndə biz onun sayıqlığını yüksək qiymətləndirmişdik. Amma bu, axıra qədər olmadı, Moskva Ukraynaya qarşı müharibə açdı. Bu, əslində Sovet İttifaqını bərpa etmək uğrundakı müharibədir. Link (11 fevral 2023)

Müasir dünyada qonşularının, eləcə də uzaq-uzaq ölkələrin sevmədiyi, "şər ocağı", "qan çanağı" hesab etdiyi 3-4 dövlət var, ikisi bizim bəxtimizə və sərhədimizə düşüb: Rusiya və İran. Link (20 fevral 2023)

Düzdür, Rusiya heç də "süddən çıxmış qaşıq" deyil və şimal qonşumuzun dabbaqda gönünə bələdik. Amma indiki durumda toqquşmaların baş verməsi Rusiyanın maraq dairəsində deyil, xüsusilə də Baydenin Kiyev səfərindən sonra, NATO-Rusiya toqquşmasının an məsələsinə çevrildiyi bir ərəfədə. Link (23 fevral 2023)

Rusiyanı döyüşdə məğlub etmək mümkün deyil. Link (21 fevral 2023)
Digər mənbələrdə: Link

Vardanyan getdi: Onu Rusiya belə qoruya bilmədi. Link (23 fevral 2023)

Təkrar paylaşım: Link

## Qərb dövlətləri

Qərb Rusiyanı özünə gələ bilməyəcək şəkildə məğlub etmək istəyir. Link (2 fevral 2023)

Avropa söz azadlığını Rusiyadan müdafiə edir. Link (8 fevral 2023)

Bu inanılmaz dərəcədə dürüst insana (Seymour Hersh) qarşıdan gələn fırtınaya tab gətirməsini arzu etmək istəyirəm. Səbəb - amerikan adət-ənənəsinə görə, belə adamların hamısı qəfildən ölür və ya həbsxanaya düşürlər, çünki birdən-birə qırx il bundan əvvəl onların bir qulluqçuya təcavüz etdikləri ortaya çıxır. Link (10 fevral 2023)

ABŞ Rusiya və MDB-də terror hücumları planlaşdırır. Link (13 fevral 2023)

Qərbin Rusiyaya qarşı iqtisadi blitskriqi uğursuzluğa düçar olub. Link (14 fevral 2023)

ABŞ və Avropanın Rusiya üzərində ukraynalıların əli ilə qələbə çalacağına dair planları artıq faktiki olaraq məhv olub. Link (16 fevral 2023)

Lakin Ukrayna hakimiyyətinin və onların Qərb ağalarının Rusiyanı indiki formada məhv etmək niyyətlərinin səmimiliyinə şübhə yoxdur. Link (17 fevral 2023)

Bu fərq Quranın yandırılması fonunda Qərb tərəfindən üzə çıxarılmır. Əksinə, aparılan propaqanda ilə müsəlmanların müqəddəs saydıqları kitaba təhqirə az qala haqq qazandırılır. Link (3 fevral 2023)

Daha dəqiq desək, Vardanyanla yanaşı, onu himayə edən, qeyri-leqal gəlirlərini artırmaqda yardımçı olan Rusiya və Qərbin bu etap üçün oyunu pozuldu. Ancaq biri üçün az, digəri üçün daha sərt formada. Link (24 fevral 2023)

Belə anlaşılır ki, Ağ Ev savaşı dayandırmaq üçün Kremllə Ukrayna əraziləri üzərindən məxfi "siyasi bazarlığa" cəhd edib. Ancaq bu cəhd uğursuz olduğundan Rusiyanın savaş meydanında tam məğlubiyyətə uğratmaq məqsədilə daha radikal addımlar atmaq, Ukraynanı daha müasir hərbi texnika ilə silahlandırmaq qərarı verib. CİA şefinin açıqlamalarında da bu versiyanın inandırıcı olduğunu biruzə verən məqamlar var. Link (3 fevral 2023)

Türkiyədə 14 may seçkiləri yaxınlaşdıqca ABŞ və Avropa mediasında qardaş ölkə və onun prezidenti Ərdoğan əleyhinə hay-küylü məqalələrin sayı artır. Türkiyədə parlament və

prezident seçkilərinə 100 gün qalmış az qala bütün Qərb mediası ayağa qalxmış kimi görünür. Link (4 fevral 2023)
Təkrar paylaşım: Link

Qərbdən növbəti absurd hesabat - monoetnik Ermənistan Türkiyədən "demokratik" imiş! Link (7 fevral 2023)

Amerika və onun müttəffiqləri əsas məqsədlərini nə qədər rəngli sözlərlə bəzəsələrsə də, əsl niyyəti daha gizlətmirlər də... Dünyada "ayı rolunu" ABŞ təkbaşına icra etmək istəyir. Rusiya SSRİ dağılandan sonra bu xəyallarla yaşayıb, amma onun cızdığı dairə dünya boyda olmayıb, heç vaxt bu rola iddia etməyib. Ona görə yox ki, bunu istəməyib. O səbəbdən ki, gücünün nəyə qadir olduğunu hesablaya bilib. Amerika və Qərb müttəfiqləri isə həmişə yekəxanalıq, ağalıq havasında olublar, indi də eyni prosesdir. Link (24 fevral 2023)

AB Rusiyaya yönəlmiş, lakin Avropaya zərər verən yeni sanksiyalar tətbiq etməkdənsə, əsas diqqətini inflyasiya ilə mübarizəyə yönəltməlidir. Link (20 fevral 2023)
Digər mənbələrdə: Link, Link

Müharibəyə Qərb başladı, biz də onu dayandırmaq üçün güc tətbiq edirik. Link (21 fevral 2023)
Digər mənbələrdə: Link

Amerika və bəzi Qərb dövlətlərinin İranda hakimiyyəti dəyişmək üçün xərclədiyi milyonlarla dollar heçə getdi! Link (12 fevral 2023)

IFCN @Poynter.

SIGNATORY

FAKT YOXLA

INTERNATIONAL FACT-CHECKING NETWORK

BAKI 2023